# Konstitusiya Məhkəməsi

**“Süngün” Məhdud Məsuliyyətli Cəmiyyəti**

Ərizəçi

**Azərbaycan Respublikası Açıq Məkanda Reklam Agentliyi**

Cavabverən

**1 Ə**

**19.09.2023**

# MÜNDƏRİCAT

İstifadə olunmuş mənbələr ..... 3

Giriş ..... 4

İşdə istifadə edilən faktlar ..... 5

Hüquqi arqumentlər ..... 7

I. Xüsusi mülkiyyətin girişində yerləşdirilmiş lövhənin reklam hesab edilməsi və lövhə üçün açıq məkanda reklam kimi icazə və ödəniş tələb olunması konstitusional mülkiyyət hüququna ziddir ..... 7

II. Reklam qanunvericiliyinin reklam və qeyri-reklam fəaliyyəti göstərən şəxsləri fərqləndirməməsi konstitusional bərabərlik hüququnu pozur ..... 9

III. İcazə ilə bağlı dövlət rüsumundan əlavə yayım haqqının tələb edilməsi qaydası dövlət ödənişlərinin qanunla müəyyən edilməsi ilə bağlı konstitusional tələbə uyğun deyil ..... 10

IV. Əvvəlki dövrə aid icazə alınmasının və ödənişlərin tələb edilməsi hüquqauyğun deyil ..... 11

Arqumentlərin xülasəsi ..... 14

Məhkəməyə müraciət ..... 15

# İstifadə olunmuş mənbələr

## Qanunlar və Konvensiyalar


1. Azərbaycan Respublikasının Konstitusiyası (1995) (13.1; 25; 29.3; 60; 73.2; 148)
2. Azərbaycan Respublikasının Mülki Məcəlləsi (1999) (152.5; 169.1;
3. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi (2015) (101.1; 428.7.1)
4. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi (1999) (417.1.4; 417.2)
5. “Normativ hüquqi aktlar haqqında” Qanun (2010) (2; 63.0.2; 65.1)
6. “Reklam haqqında” Qanun (2015) (1.1; 2.0.1; 2.0.3; 4.1; 26.1; 26.2; 26.2-3; 26.5; 26.9; 34.1)
7. “Dövlət rüsumu haqqında” Qanun (2001)
8. “Lisenziyalar və icazələr haqqında” Qanun (2016)
9. “Reklam qurğularına Texniki Tələblər”in təsdiq olunması barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (12 dekabr 2016) (2.2)
10. “Açıq məkanda reklam fəaliyyətinin tənzimlənməsi ilə bağlı bir sıra məsələlər haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı (26 dekabr 2017) (1 nömrəli əlavə)
11. “Açıq məkanda reklam fəaliyyəti ilə bağlı bir sıra məsələlərin tənzimlənməsi haqqında” Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (19 dekabr 2017) (1.3)
12. Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyinin fəaliyyətinin təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı (31 iyul 2017) (2.2.10)


## Məhkəmə qərarları


13. “Stambuk Almaniyaya qarşı” işi üzrə Avropa İnsan Hüquqları Məhkəməsinin (“AİHM”) Qərarı (2003) (39)
14. “Mouvement Raelien Suisse İsveçrəyə qarşı” işi üzrə AİHM Qərarı (2012)
15. “Coeme və başqaları Belçikaya qarşı” işi üzrə AİHM Qərarı (2000)
16. “Xamidov Rusiyaya qarşı” işi üzrə AİHM Qərarı (2008) (143)
17. “İliya Stefanov Bolqarıstana qarşı” işi üzrə AİHM Qərarı (2008) (38)
18. “Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 306-cı maddəsinin “Qeyd” hissəsinin həmin Məcəllənin 11-ci fəsli və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 39, 40, 41 və 43-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin Qərarı (7 iyul 2023)
19. “Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında Azərbaycan Respublikasının Qanunun bəzi müddəalarının şərh olunmasına dair” Konstitusiya Məhkəməsi Plenumunun Qərarı (28 yanvar 2014)
20. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 71.1-ci maddəsinin şərh olunmasına dair Konstitusiya Məhkəməsi Plenumunun Qərarı (13 dekabr 2010)


## Digər mənbələr


21. The Declaration of Principles on Equality: A Contribution to İnternational Human Rights (2011)
22. Vasif Cəfərov. Ekspress, 4 aprel 2017, [10]

# Giriş

Ərizəçi "Süngün" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra "Şirkət") 17 aprel 2020-ci il tarixində cavabverən Dövlət Reklam Agentliyi (bundan sonra "Agentlik") tərəfindən aparılan nəzarət tədbirinin nəticələrinin qanunsuz olduğu qənaətindədir. Belə ki, Agentliyin mövqeyinə əsasən Ərizəçinin xüsusi mülkiyyətin giriş hissəsində yerləşdirdiyi məlumat xarakterli lövhə reklam lövhəsidir və Ərizəçi tərəfindən həmin lövhənin yerləşdirilməsi üçün icazə alınmalı, icazənin alınmadığı dövrdə daxil olmaqla dövlət rüsumu və yayım haqqı ödənilməlidir. Daha sonra Ərizəçinin icazənin verilməsi üçün müraciət etməsinə baxmayaraq Ərizəçi tərəfindən əvvəlki dövrə aid rüsum və yayım haqqının ödənilməməsinə görə Cavabverən icazənin verilməsindən imtina etmişdir. Ərizəçi Agentlik tərəfindən imtinanın edilməsinin, icazənin alınmadığı dövr üçün rüsum və yayım haqqının tələb olunmasının, inzibati xəta barədə protokol tərtib edilməsinin əsassız olduğunu hesab edir və bunun nəticəsində onlara maddi ziyanın vurulduğunu iddia edir.

## İşdə istifadə edilən faktlar

1. Ərizəçi "Süngün" MMC Topçubaşov rayonu ərazisindəki "Tikantəpə" qızıl mədənində mədən-hasilat şirkətləri üçün avadanlıq təchizatı və mühəndislik xidmətləri göstərən şirkətdir. Şirkətin xüsusi mülkiyyəti olan və fəaliyyət göstərdiyi istehsalat bazası yolun 500 metr qərbində yerləşir və 2013-cü ildən etibarən Şirkətin lövhəsi bazanın giriş hissəsində yerləşdirilmişdir.
2. 1 avqust 2017-ci ildən etibarən qüvvəyə minən "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununa edilmiş dəyişikliyə əsasən açıq məkanda yerləşdirilmiş reklam xarakterli lövhə və məlumatların tənzimləmə rejimi yenilənmişdir. Əlavə olaraq açıq məkanda reklam yerləşdirilməsinə icazə verilməsi və bu sahədə nəzarətin həyata keçirilməsi qaydası müəyyən edilmişdir. Qanunvericilikdə baş vermiş dəyişikliklərlə əlaqədar olaraq 2 iyul 2017-ci ildə hökumətin vebsaytında press-reliz yayımlanmışdır.
3. Agentlik qanunvericilikdə baş vermiş dəyişikliklərin qüvvəyə minməsindən 3 il sonra 17 aprel 2020-ci ildə Şirkətə bildiriş göndərmiş və lövhənin açıq məkanda reklam kimi yerləşdirilməsi üçün icazə alınmalı olduğu barədə xəbərdarlıq etmişdir. Ərizəçi xəbərdarlığa məktubla etiraz etmiş, lövhənin Qanunun məqsədləri üçün "reklam" və ya "açıq məkanda reklam"adlandırılmasını qeyri-müəyyən, icazə ilə bağlı əlavə ödənişlərin edilməsini isə əsassız hesab etdiyini bildirmişdir. Buna baxmayaraq 15 iyun 2020-ci ildə Agentlik növbəti xəbərdarlığı edərək icazə alınmadığı halda inzibati xəta haqqında iş üzrə icraat başladılacağını bildirmişdir.
4. Şirkət inzibati xəta icraatının başlamaması üçün 19 iyun 2020-ci il tarixində icazənin verilməsi üçün Agentliyə məktubla müraciət etmiş, Agentliyin sahə üzrə inspektorunun verdiyi yanlış məsləhətlər əsasında məktubda təkcə lövhənin yerləşdiyi yeri göstərməklə icazənin verilməsini xahiş etmişdir. Agentlik müraciət məktubunu aldıqdan sonra 01.01.2018-01.01.2021-ci ilə qədərki dövrü əhatə edən dövlət rüsumu və yayım haqqının ödənilməsini tələb edir.
5. Şirkət müraciətdən əvvəlki dövrə dair rüsum və yayım haqqı ödənişlərinin tələb olunmasını hüquqazidd hesab etmiş və Agentliyə etirazını bildirmişdir. 24 iyun 2020-ci il tarixində Şirkət yalnız 01.07.2020-01.01.2021 dövrünə aid dövlət rüsumunu ödəyərək müvafiq ödəniş tapşırığının surətini Agentliyə təqdim etmiş və icazənin verilməsini xahiş etmişdir. 30 iyun 2020-ci ildə Agentlik İnzibati Xətalar Məcəlləsinin 428.7.1-ci maddəsi əsasında tərtib etdiyi protokolu Topçubaşov Rayon Məhkəməsinə baxılmaq üçün göndərmişdir. 19 iyul 2020-ci il tarixində Agentlik icazənin verilməsindən imtina etmişdir.
6. 7 avqust 2020-ci ildə isə Topçubaşov Rayon Məhkəməsi işə baxmış və Şirkətin 5000 manat cərimə olunması barədə qərar qəbul etmişdir. Qərardan apellyasiya şikayəti verən Şirkətin iddiası təmin olunmamış və həmin qərar qüvvədə saxlanılmışdır. Cərimə məbləği sonradan icra orqanının inkasso sərəncamı əsasında Şirkətin bank hesabından məcburi qaydada tutulmuşdur.
7. 17 avqust 2020-ci ildə Şirkət Topçubaşov İnzibati Məhkəməsində Agentliyə qarşı iddia qaldırmışdır. 20 avqust 2020-ci ildə Şirkətin mətbuat katibi, iki gün sonra isə Agentliyin mətbuat katibi məsələ ilə bağlı "Gündəlik Topçu" qəzetinə müsahibə vermişdir.
8. Məhkəmə Ərizəçinin iddiasını yalnız müraciətdən əvvəlki dövr üçün ödənişlərin tələb edilməsinin hüquqazidd olması hissəsində təmin etmişdir. Apellyasiya instansiya məhkəməsi birinci instansiya məhkəməsinin qərarını olduğu kimi saxlasa da, Agentliyin şikayəti əsasında kassasiya instansiyası qərarın ləğvi və yenidən araşdırılması üçün

apellyasiya instansiyasına qaytarılması nəticəsinə gəlmişdir. İşə növbəti dəfə baxan apellyasiya instansiyası iddianın rədd edilməsi barədə qərar vermiş və kassasiya instansiyası Ərizəçinin şikayətini təmin etməmişdir. Şirkət kassasiya instansiyasının qərarı barədə Konstitusiya Məhkəməsinə şikayət etmişdir.

# Hüquqi arqumentlər

**I. Xüsusi mülkiyyətin girişində yerləşdirilmiş lövhənin reklam hesab edilməsi və lövhə üçün açıq məkanda reklam kimi icazə və ödəniş tələb olunması konstitusional mülkiyyət hüququna ziddir.**

**A. Xüsusi mülkiyyətin girişində yerləşdirilmiş lövhə üçün açıq məkanda reklam kimi icazə və ödəniş tələb olunması konstitusional mülkiyyət hüququnu pozur.**

"Süngün" MMC istehsal bazasına məxsus xüsusi mülkiyyətin girişində sadə lövhənin yerləşdirilməsi üçün Agentlik tərəfindən icazənin və ödənişin tələb olunması şirkətin mülkiyyət hüququnun əsassız olaraq məhdudlaşdırılmasıdır. Belə ki, Azərbaycan Respublikasının (bundan sonra "AR") Konstitusiyasının 29.3-cü maddəsinə əsasən mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir. AR-nın Mülki Məcəlləsinin 152.5-ci maddəsinə əsasən isə mülkiyyətçi qanunda və ya müqavilədə müəyyən edilən məhdudiyyətlər nəzərə alınmaqla müəyyənləşdirilmiş hədlərdə əmlaka (əşyaya) sərbəst surətdə sahib ola bilər, ondan istifadə edə bilər və ona dair sərəncam verə bilər, həmin əmlaka başqa şəxslərin sahibliyinə yol verməyə bilər, **ona mənsub əmlak barəsində öz mülahizəsi ilə istənilən hərəkətləri edə bilər,** bir şərtlə ki, həmin hərəkətlər qonşuların və ya üçüncü şəxslərin hüquqlarını pozmasın, yaxud hüquqdan sui-istifadə olmasın.

AR-nın Mülki Məcəlləsinin 169.1-ci maddəsinə əsasən şirkətin **xüsusi mülkiyyət hüququ yalnız və yalnız bu Məcəllədə müəyyənləşdirilmiş hallarda məhdudlaşdırıla bilər.** Xüsusi mülkiyyətin giriş hissəsində yalnızca şirkətin adının əks olunduğu lövhənin yerləşdirilməsi ilə bağlı qanunvericilikdə hər hansısa bir məhdudiyyət nəzərdə tutulmamışdır və şirkət ona mənsub əmlakdan öz mülahizəsinə uyğun olaraq istifadə etmişdir. Şirkət xüsusi mülkiyyətdən başqalarına ziyan vuran şəkildə istifadə etməmişdir və 2013-cü ildən etibarən sadə lövhənin xüsusi mülkiyyətdə yerləşdirilməsinə baxmayaraq heç bir şəxsin hüquqları pozulmamışdır. AR Konstitusiyasının 13.1-ci maddəsinə əsasən şirkətin xüsusi mülkiyyəti toxunulmazdır və dövlət tərəfindən müdafiə olunmalıdır.

Yuxarıda qeyd olunanlara baxmayaraq istehsal bazasının girişində yerləşdirilmiş lövhə Agentlik tərəfindən reklam hesab edilsə belə, lövhənin yerləşdirilməsi ilə şirkətin maraqları və sosial öhdəlikləri, başqa sözlə, ictimai maraqlar arasında heç bir toqquşma yaranmamışdır.

Belə ki, "Reklam haqqında" Qanunun 26.5-ci və 26.9-cu maddələrinə uyğun olaraq məlumat lövhəsi xüsusi mülkiyyət sahəsində yerləşdirildiyinə görə yol hərəkəti iştirakçıları üçün təhlükə yaratmır, sürücülərin yol şəraitini qiymətləndirməsinə mane olmur və çətinləşdirmir[1].

Həmçinin "Reklam qurğularına Texniki Tələblər"in 2.2-ci bəndinə əsasən məlumat lövhəsi yerləşdirildiyi ərazinin estetik görünüşünə xələl gətirmədən yerləşdirilmişdir[2]. Lövhənin 2013-cü ildən bəri həmin sahədə yerləşdirilməsinə baxmayaraq fiziki şəxslərin həyat və sağlamlığına heç bir şəkildə təhlükə yaratmamışdır.

---

[1] "Reklam haqqında" Azərbaycan Respublikasının Qanunu (2015)

[2] "Reklam qurğularına Texniki Tələblər"in təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı (2016)

**B. Xüsusi mülkiyyətin giriş hissəsində yerləşdirilmiş lövhə reklam hesab edilməməlidir.**

Həmçinin xüsusi mülkiyyətin girişində yerləşdirilmiş lövhənin açıq məkanda reklam hesab edilməsi AR-nın "Reklam haqqında" Qanununun tələblərinə ziddir. Belə ki, Qanunun 26.1-ci maddəsinə, eləcə də "Açıq məkanda reklam yerləşdirilməsinə icazə verilməsi və bu sahədə nəzarətin həyata keçirilməsi Qaydasının 1.3-cü bəndinə əsasən reklam birbaşa və ya reklam daşıyıcısı vasitəsilə torpaq sahələrində, bina, qurğu və digər tikililərin fasadlarında, dam örtüklərində, bayıra ünvanlanmaqla qapıların, pəncərələrin, vitrinlərin çöl və iç tərəflərində, habelə açıq məkanda olan avadanlıqlarda, avtomobil yollarının dayanacaqlarında və yeraltı keçidlərində, hava şarlarının, aerostat və dirijablların üzərində yerləşdirildiyi halda açıq məkanda reklam hesab olunur. Ümumiyyətlə şirkət tərəfindən özünə məxsus olan sahədə - xüsusi mülkiyyətdə məlumat lövhəsinin yerləşdirilməsi reklam kimi qiymətləndirilməməlidir. Çünki Qanunun 2.0.1-ci maddəsinə əsasən reklam istehlakçısının diqqətini **reklam obyektinə müxtəlif vasitə və üsullardan istifadə olunmaqla istənilən formada cəlb etmək,** marağını formalaşdırmaq və saxlamaq, əmtəəni bazarda tanıtmaq və satışını stimullaşdırmaq məqsədi ilə yayımlanan məlumat reklam hesab olunur.

Qanunun 2.0.3-cü madəsinə əsasən reklam obyekti dedikdə reklam olunan mallar, işlər və xidmətlər, onun fərdiləşdirilmə vasitələri, həyata keçirilən kommersiya və qeyri-kommersiya xarakterli tədbirlər nəzərdə tutulur. Qeyd olunanlardan da göründüyü kimi reklam fəaliyyətinin əsas məqsədi reklam istehlakçılarının diqqətini reklam obyektinə (mal, iş və ya xidmət) cəlb etmək və bununla da əmtəənin satışını stimullaşdırmaqla gəlir əldə etməkdir.

**"Süngün" MMC-nin əsas fəaliyyətinin mədən-hasilat şirkətləri üçün avandanlıq təchizatı və mühəndislik xidmətlərinin göstərilməsi olmasına baxmayaraq istehsal bazasının giriş hissəsində yerləşdirilən lövhədə yalnızca şirkətin adı qeyd olunmuş və reklam obyekti hesab olunan hər hansısa mal, iş və ya xidmət barədə məlumat əks olunmamışdır**. Bazanın giriş hissəsində lövhənin yerləşdirilməsi fiziki şəxslərin diqqətini şirkətin fəaliyyətinə cəlb etmək məqsədi daşımır və heç bir halda lövhə reklam kimi qiymətləndirilə bilməz.

Qanunun 4.1-ci maddəsinə əsasən reklam **reklam istehlakçılarının diqqətini əmtəəyə cəlb etməli, əmtəə barədə məlumat verməк və rəy formalaşdırmaqla ona tələbat yaratmalıdır**.

"Stambuk Almaniyaya qarşı" [3]və "Mouvement Raelien Suisse İsveçrəyə qarşı" [4]işləri üzrə AİHM-nin Qərarına əsasən vətəndaşlar üçün **reklam ona təklif olunan xidmətlərin və malların xüsusiyyətlərini aşkar etmək vasitəsidir.**

Agentlik tərəfindən reklam hesab olunan lövhə şirkətin əsas fəaliyyət istiqamətləri barədə heç bir məlumat vermir və ya fiziki şəxslərdə hər hansısa şəkildə rəy formalaşdırmır. Həmçinin lövhədə fiziki şəxslər üçün hər hansı mal və ya xidmət təklif olunmur.

---

[3] "Stambuk Almaniyaya qarşı" işi üzrə AİHM-in Qərarı (2003), 39

[4]"Mouvement Raelien Suisse İsveçrəyə qarşı" işi üzrə AİHM-in Qərarı (2012)

**II. Reklam qanunvericiliyinin reklam və qeyri-reklam fəaliyyəti göstərən şəxsləri fərqləndirməməsi konstitusional bərabərlik hüququnu pozur.**

Agentlik tərəfindən  Şirkətə reklam şirkəti kimi davranılır, lakin Şirkətin reklam şirkəti hesab edilməsi üçün  reklam fəaliyyətinin subyekti olması zəruridir. **Bütün qanunlar bərabər vəziyyətdə olan şəxslərə qarşı eyni qaydanın, bərabər vəziyyətdə olmayanlara isə fərqli qaydanın tətbiq edilməsini tələb edir**. Bu da məhz bərabərlik prinsipinə əsaslanır. Bərabərlik prinsipi iki qrup subyektin oxşar şərtlərdə olub – olmamasının təyin edilməsi üzərində qurulmuşdur. Göründüyü kimi reklam fəaliyyəti ilə məşğul olmayan subyektlər reklam fəaliyyəti ilə məşğul olan subyektlərlə bərabər və ya eyni vəziyyətdə deyil, yəni birincisi reklam fəaliyyətinin subyekti olmadığı halda, ikincisi reklam fəaliyyətinin subyektidir. Bunlar tamamilə fərqli vəziyyətdə və mövqedə dayanan, oxşar olmayan şərtlərin tətbiq edildiyi şəxlərdir, bu səbəbdən həmin şəxslərə qarşı qanunvericiliyin tələbləri bərabər şəkildə tətbiq edilməməlidir.

Belə ki,  "Reklam haqqında" Qanunun 1.1-ci maddəsinə görə bu Qanun AR-nın ərazisində **reklam fəaliyyətinin subyektləri** arasında reklamın sifarişi, istehsalı, yayımı, istehlakı ilə bağlı yaranan münasibətlərə tətbiq edilir. Reklam subyektləri dedikdə isə reklamverici, reklam yaradıcısı, reklam istehsalçısı, reklam agenti, reklam yayıcısı və reklam istehlakçısı başa düşülür. Reklam şirkəti reklam sahəsində ixtisaslaşmış şirkətdir. Şirkət adı çəkilən heç bir reklam subyektinə daxil deyil, bunun səbəbi həm **ümumiyyətlə bazanın girişində yerləşən lövhənin reklam olmaması, həm də reklam obyektinin mövcud olmaması və Şirkətin qeyd edilən reklam subyektlərinin yerinə yetirdiyi fəaliyyəti icra etməməsidir.**

Göründüyü kimi reklam və reklam fəaliyyəti o zaman ola bilər ki, reklam obyekti mövcud olsun, eyni zamanda reklam subyektinin hərəkəti olsun. Burada isə nə reklam lövhəsi, nə reklam obyekti, nə də reklam subyekti var. "Süngün" MMC reklam şirkətləri ilə eyni mövqedə dayanan subyekt olmamaqla bərabər, həm də onların realizə etdiyi kimi *oxşar fəaliyyəti həyata keçirmir.*

**Bərabərlik hüququ şəxslərin onları bir-birindən fərqləndirən cəhətləri nəzərə alınmadığı şəkildə tövsif edildiyi halda pozulmuş hesab edilməlidir**. Deməli, bərabərlik heç də hər bir halda şəxslərin bərabərliyini deyil, bərabər vəziyyətdə olanların bərabərliyini ehtiva edir.
AR Konstitusiyasının 25-ci maddəsinə əsasən hamı qanun və məhkəmə qarşısında bərabərdir. Qanunçuluq prinsipi baxımından hüquq normalarının məzmununun qeyri-müəyyənliyi hüquq tətbiqetmə prosesində hədsiz mülahizələrə və özbaşınalığa gətirib çıxarmaqla bərabərlik prinsipini pozmuş olur[5]. Bərabərlik hüququ mahiyyətcə qanun və məhkəmə qarşısında hamının məhz hüquq və azadlıqlarının bərabərliyini ifadə etsə də, şəxslərin mexaniki bərabərləşdirilməsini nəzərdə tutmur[6]. Yəni mövzuya  **"məsələ bərabərlik deyil, hansı bərabərlikdir"** aspektindən baxılmalıdır.

Digər tərəfdən konstitusiya prinsipi olan bərabərlik prinsipi bərabər şərtlər daxilində hüquq subyektlərinin bərabər vəziyyətdə olmalarını və ən əsası eyni kateqoriyaya aid şəxslərə hər hansı obyektiv və ağlabatan izah olmadan ayrı-seçkiliyin tətbiq olunmasını qadağan edir[7]. "Süngün"

---

[5] AR CM-nin 306-cı maddəsinin "Qeyd" hissəsinin həmin Məcəllənin 11-ci fəsli və AR CPM-nin 39, 40, 41 və 43-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair AR Konstitusiya Məhkəməsinin Qərarı, 7 iyul 2023
[6] Vasif Cəfərov. Ekspress, 4 aprel 2017, [10]
[7] "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" AR Qanunun bəzi müddəalarının şərh olunmasına dair Konstitusiya Məhkəməsi Plenumunun Qərarı, 28 yanvar 2014

MMC reklam şirkətləri ilə eyni kateqoriyaya aid deyil və bərabər şərtlər daxilində, bərabər vəziyyətdə olan hüquq subyekti hesab olunmur. AİHM - nin "Koem və başqaları Belçikaya qarşı" Qərarına əsasən qanunvericilikdə bu cür halların müəyyən edilməməsi və fərqləndirilməməsi zamanı tərəflərin bu qeyri-müəyyənlikdən əziyyət çəkmək ehtimalı daha yüksəkdir. Qanunun məqsədinin şəxsləri hər hansı səlahiyyətin aşılması halından qorumaq olduğunu nəzərə alsaq, **bu qaydaların qanunda müəyyən edilməməsi tərəflərin bərabərliyinin pozulmasına səbəb ola bilər**[8].

Qanunda nəzərə alınmalıdır ki, şəxslər həmişə bir əlamətə görə müəyyən edilə bilməz, onlar fərqlidirlər və fərqli əlamətlərə malikdirlər[9]. Bu səbəblə də "Süngün" MMC-yə qeyri-reklam fəaliyyətinin subyekti olması nəzərə alınmaqla davranılmalıdır, əksi isə bərabərlik hüququnun pozulmasıdır. Bərabərlik hüququna əsasən vəziyyəti fərqli olan subyektlər üçün eyni tənzimləmə tətbiq edilə bilməz[10].

## III. Dövlət rüsumundan əlavə yayım haqqının tələb edilməsi qaydası dövlət ödənişlərinin qanunla müəyyən edilməsi ilə bağlı konstitusional tələbə uyğun deyil.

AR Konstitusiyasının 73.2-ci maddəsinə əsasən heç kəs qanunla nəzərdə tutulmuş əsaslar olmadan və qanunda göstərilmiş həcmdən əlavə vergilər və başqa dövlət ödənişləri ödəməyə məcbur edilə bilməz. Belə ki, açıq məkanda reklama görə reklam yayıcılarından həm dövlət rüsumu, həm də yayım haqqı tələb edilməsi, onlardan bir növ fəaliyyətdən bir dəfədən artıq-iki növ məbləğin tutulmasıdır.

"Reklam haqqında" Qanunda açıq məkanda reklama görə yayım haqqının tutulması meyarları demək olar ki, müəyyən edilməmişdir. Bəhs edilən Qanunda dövlət rüsumunun tutulmasının "Dövlət rüsumu haqqında" Qanunla müəyyən edilməsi qeyd olunmuşdur, lakin yayım haqqını təşkil edən məbləğin müəyyən edilməsi və tətbiqi qaydası heç bir qanunla tənzimlənmir. Dövlət rüsumunun qanunla müəyyən edilməsi, yayım haqqının isə sadəcə icra hakimiyyəti orqanının aktı ilə tənzimlənməsi, yayım haqqına münasibətdə normativ hüquqi aktdan sui-istifadə imkanının yaranmasına səbəb olur. Yəni burada Konstitusiyanın 73.2-ci maddəsinin pozulması halı odur ki, yayım haqqının həcmi konkret olaraq qanunla göstərilmir.

Habelə AR Konstitusiyasının 148-ci və "Normativ hüquqi aktlar haqqında" AR Qanunun 2-ci maddəsinə görə qanunlar fərmanlardan iyerarxiya üzrə üstün hüquqi qüvvəyə malikdir və fərmanlar qanuna zidd olmamalıdır. Lakin qanunda konkret meyarların müəyyənləşdirilməməsi fərmanda nəzərədə tutulan müddəanın qanuna zidd olub-olmaması halını müəyyən etməyə imkan vermir. Çünki bu halda fərmanda istənilən qayda nəzərdə tutula bilər. Bu da artıq qanunda boşluq kimi qiymətləndirilməlidir və boşluğun icra hakimiyyəti orqanının aktı ilə doldurulması normativ hüquqi aktdan sui-istifadədir.

Normativ hüquqi aktdan sui-istifadə imkanı normativ hüquqi aktda korrupsiya təzahürləri üçün şəraitin yaranmasına kömək edən müddəaların mövcudluğudur. Özündə sui-istifadə

---

[8] "Coeme və başqaları Belçikaya qarşı" işi üzrə AİHM-nin Qərarı (2000)
[9] The Declaration of Principles on Equality: A Contribution to İnternational Human Rights
[10] AR CM-nin 71.1-ci maddəsinin şərh olunmasına dair Konstitusiya Məhkəməsi Plenumunun Qərarı, 13 dekabr 2010

amillərini ehtiva edən normalar və ya normativ hüquqi aktlar sui-istifadəyə məruz qalmış norma və ya normativ hüquqi akt hesab edilir. Sui-istifadə amilləri dedikdə, normativ hüquqi aktın tətbiqi zamanı sui-istifadənin təzahürünə səbəb olan, o cümlədən sui-istifadə təcrübəsinin bilavasitə əsası olan, yaxud sui-istifadə əməllərinə legitim şərait yaradan, sui-istifadə əməllərinə yol verən və ya onlara təhrik edən normativ hüquqi aktların müddəaları nəzərdə tutulur. Sui-istifadə amillərinin növlərindən biri hüquqi boşluqların mövcudluğu ilə əlaqədar olan tipik sui-istifadə amilləridir ("Normativ hüquqi aktlar haqqında" Qanun, maddə 63.0.2). Qanunun 65.1-ci maddəsinə görə hüquqi boşluqlar bu və ya digər məsələnin hüquqi tənzimlənməməsi nəticəsində, normativ hüquqi aktın tənzimləmə üçün istifadə edilmədiyi halda, habelə normativ hüquqi aktın mətninə hüquq pozuntularına görə vəzifəli şəxslərin məsuliyyətini nəzərdə tutan və onların fəaliyyətinə nəzarəti tənzimləyən sui-istifadə əleyhinə preventiv normalar daxil edilmədikdə yaranır.

Qanunda sui-istifadə hallarına qarşı adekvat müdafiəni təmin edən müddəalar nəzərdə tutulmalı və dövlət orqanları həmin müəddələra riayət etməlidirlər[11]. Digər bir AİHM-nin qərarına əsasən hər şeydən əvvəl qanunvericilikdə və praktikada hər hansı sui-istifadə və özbaşınalıq hallarına qarşı yetərli və səmərəli təminatlar mövcud olmalıdır[12].

Digər bir məsələ yayım haqqının məbləğinin dövlət rüsumundan bir neçə qat çox olmasıdır. **İlkin** qanuna uyğun olmayan hal şəxsin eyni növ fəaliyyətdən əldə edilən gəlirindən iki cür haqqın tələb edilməsi, **ikincisi**, bunun məhz qanunda konkret meyarlar göstərilmədən digər bir aktla tənzimlənməsi və normativ hüquqi aktdan sui-istifadəyə (burada sui-istifadəyə məruz qalan normativ hüquqi akt "Reklam haqqında" Qanundur) imkan yaratması, **üçüncüsü** isə yayım haqqı məbləğinin hətta dövlət rüsumundan qat-qat çox olmasıdır. Belə ki, bu hal sahibkarlıq fəaliyyəti ilə məşğul olan subyektlərin vəziyyətini ağırlaşdırır və onun xərclərinin həddindən artıq çox artması nəticəsində bazar münasibətlərində inkişafına maneə olur. Agentlik tərəfindən Şirkətdən bir 6 aylıq dövr üçün yayım haqqı dövlət rüsumundan 407.68 manat çox, yəni 679.68 manat tələb edilmişdir. Bu da 3 illik dövr üçün 4078.08 manat yayım haqqının tələb edilməsi, yəni 3 illik müddətin rüsum haqqısından 2446.08 manat çox məbləğ deməkdir.

Yuxarıda qeyd olunmuş hallara görə Şirkətin bazanın girişində yerləşdirdiyi lövhə reklam olsa belə, ondan əlavə yayım haqqının tələb edilməsi qanuna uyğun deyil.

## IV. Əvvəlki dövrə aid icazə alınmasının və ödənişlərin tələb edilməsi hüquqauyğun deyil

"Reklam haqqında" AR Qanununun 26.2-ci maddəsinə əsasən açıq məkanda reklam yerləşdirmək üçün reklam yayıcısına icazənin verilməsinə görə "Dövlət rüsumu haqqında" AR-nın Qanunu ilə müəyyən edilmiş məbləğdə və qaydada dövlət rüsumu tutulur. Həmçinin Qanunun 26.2-3-cü maddəsinə əsasən reklam yayıcısı açıq məkanda reklam yayımına görə Agentliyə haqq ödəyir.

Belə ki, Agentlik tərəfindən 17 aprel 2020-ci ildə icazə alınması üçün Şirkətə bildiriş göndərilmişdir. Buna əsasən Şirkət 01.07.2020-ci il tarixindən etibarən icazənin verilməsi üçün Agentliyə müraciət etmişdir və Qanuna uyğun olaraq ilk öncə 01.07.2020-01.01.2021 dövrünə

[11] "Xamidov Rusiyaya qarşı" işi üzrə AİHM-nin Qərarı, 143
[12] "İliya Stefanov Bolqarıstana qarşı" işi üzrə AİHM-nin Qərarı, 38

aid dövlət rüsumunu ödəyərək müvafiq ödəniş tapşırığının surətini Agentliyə təqdim etmiş və icazənin verilməsini tələb etmişdir.

Lakin Agentlik 01.01.2018-01.01.2021 dövrü üçün ödənişlərin edilməsini Şirkətdən tələb etmiş və icazənin verilməsindən qanunsuz olaraq imtina etmişdir. İcazənin verilməsi Şirkətin müraciət etdiyi andan sonrakı dövrü (01.07.2020-01.01.2021) əhatə etdiyindən 2020-ci ildən əvvəlki dövrə qədər olan ödənişlərin tələb olunması sadəcə olaraq Agentliyin gəlir əldə etmək məqsədi ilə bağlıdır.

Belə ki, Məhkəmə tərəfindən istehsalat bazasının giriş hissəsində yerləşdirilmiş lövhə reklam lövhəsi hesab olunduğu təqdirdə Şirkətin 01.01.2018-01.07.2020-ci il dövrü ərzində daşıdığı öhdəlik yalnızca İXM-nin 428.7.1-ci maddəsinə əsasən tətbiq olunmuş inzibati tənbeh tədbirinə əməl etməklə məhdudlaşır. Reklamın yayımlanmasına görə dövlət rüsumu və yayım haqqının ödənilməsi ilə bağlı öhdəlik yalnız Agentlik tərəfindən icazə verildiyi andan etibarən yaranır. İcazə almadan reklam lövhəsinin yerləşdirildiyi hallarda isə icazə alınmadığına görə dövlət rüsumunun və yayım haqqının ödənilməsi öhdəliyi yaranmır və Şirkət İXM-ə əsasən tətbiq olunan cəriməni ödəməklə bağlı məsuliyyət daşıyır.

31 iyul 2017-ci tarixli Fərman əsasında təsdiq olunmuş Agentliyin Nizamnaməsinə əsasən Agentlik açıq məkanda reklam fəaliyyəti ilə bağlı vahid tənzimləməni və nəzarəti həyata keçirən publik hüquqi şəxsdir.

"Reklam haqqında" AR Qanununun 34.1-ci maddəsinə əsasən reklam fəaliyyətinə nəzarətin məqsədi reklam subyektlərinin maraqlarını və bu Qanunun tələblərinin yerinə yetirilməsini təmin etmək, o cümlədən bu Qanunun tələblərinə cavab verməyən reklamın yayımını dayandırmaq, reklam fəaliyyətinin subyektlərinə bu Qanunun tələbləri ilə bağlı icrası məcburi olan göstərişlər verməkdir.

Nizamnamənin 2.2.10-cu bəndinə əsasən Agentlik reklamvericilərin, reklam istehsalçılarının, yaradıcılarının, reklam agentlərinin və reklam yayıcılarının hərəkətlərində açıq məkanda reklam üzrə inzibati xəta əlamətləri aşkar etdikdə, İXM-nə uyğun olaraq tədbirlər görür.

Belə ki, Agentlik tərəfindən reklam barədə qanunvericiliyin tələblərinə cavab verməyən reklam yayımı halı aşkar edildikdə İXM-də nəzərdə tutulmuş qaydada inzibati xəta barədə protokol tərtib edilərək baxılması üçün məhkəməyə göndərilə bilər.

İXM-nin 101.1-ci maddəsinə əsasən inzibati xətanın törədilməsi faktı aşkar edildikdən dərhal sonra inzibati xəta haqqında protokol tərtib edilir. İşin hallarının, eləcə də barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxsin şəxsiyyətinin və ya hüquqi şəxs barəsində məlumatların əlavə aydınlaşdırılması tələb olunduğu hallarda, inzibati xəta haqqında protokol inzibati xətanın aşkar edildiyi vaxtdan iki gün müddətində tərtib edilir.

"Reklam haqqında" Qanun üzrə dəyişikliklərin 1 avqust 2017-ci ildən etibarən qüvvəyə minməsinə baxmayaraq 3 il sonra 17 aprel 2020-ci ildə Agentlik Şirkət tərəfindən reklam haqqında qanunvericiliyin tələblərinin "pozulması" barədə bildiriş göndərmişdir. İXM-nin 428.7.1-ci maddəsinə əsasən müvafiq icazə olmadan açıq məkanda reklam yerləşdirilməsi inzibati xəta hesab olunur. Agentlik tərəfindən Şirkətin "inzibati xəta törətməsi" faktı birdən-birə 3 il sonra aşkar edilsə də, inzibati xəta barədə dərhal protokol tərtib olunmamışdır. Belə ki,

Agentlik “pozuntu faktını” 2020-ci il aprel ayında “aşkar” etsə də, 2 ay sonra 30 iyun 2020-ci il tarixində İXM-nin 428.7.1-ci maddəsi əsasında tərtib etdiyi protokolu Topçubaşov Rayon Məhkəməsinə baxılmaq üçün göndərmişdir.

Agentliyin iddiasına əsasən Şirkət tərəfindən “reklam lövhəsinin” yerləşdirilməsinə görə 01.01.2018-ci il tarixindən sonrakı dövr üçün icazə alınmalı idi. Belə olan halda 01.07.2017-01.07.2020 dövrü ərzində Şirkət tərəfindən “pozuntu” törədilmiş hesab olunur. Bu səbəbdən şirkətin 01.07.2020-ci ildən sonrakı dövr ərzində icazə verilməsi üçün müraciət etməsinə baxmayaraq yenə də Agentlik tərəfindən öz iddiasına əsasən “pozuntunun” törədilməsi barədə protokol tərtib edilməli idi. Lakin fəaliyyətinin əsas məqsədi yalnızca gəlir əldə etmək olan Agentlik Şirkətin 01.01.2018-01.01.2021-ci il tarixləri ərzində dövlət rüsumu və yayım haqqını ödəmədiyini bildikdən sonra qanunvericiliyin tələbini pozaraq inzibati xəta barədə protokol tərtib etmişdir.

Qeyd olunanlarla yanaşı, Agentlik iş yükünün çoxluğunu bəhanə gətirməklə öz vəzifələrini doğru şəkildə yerinə yetirmir. Belə ki, Agentlik Şirkətin yerləşdirdiyi lövhəni reklam kimi qiymətləndirdiyinə görə 2017-ci il 1 avqust tarixindən etibarən Şirkətə icazənin alınması tələbi barədə bildiriş təqdim etməli idi. Lakin Qanuna edilmiş dəyişikliklərin qüvvəyə minməsindən 3 il sonra Agentlik Şirkətə xəbərdarlıq etmişdir.

Həmçinin Şirkətin icazə almaq məqsədi ilə Agentliyə ünvanladığı məktuba əlavə olunmalı sənədlərin siyahısı barədə Agentlik tərəfindən yanlış məlumat təqdim olunmuşdur.

19 dekabr 2017-ci il tarixli Fərman ilə qəbul olunmuş “Açıq məkanda reklam yerləşdirilməsinə icazə verilməsi və bu sahədə nəzarətin həyata keçirilməsi” Qaydasının 2.3-cü bəndinə əsasən icazə verilməsi üçün təqdim olunmuş ərizədə və ona əlavə edilmiş sənədlərdə aradan qaldırılması mümkün olan və icazənin verilməsindən imtinaya səbəb olmayan çatışmazlıqlar aşkar edildikdə, ərizənin qeydiyyata alındığı tarixdən etibarən 5 iş günündən gec olmayaraq müvafiq qurum onların aradan qaldırılması üçün reklam yayıcısına bildiriş təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərir və formal tələblərə əməl olunmamasının hüquqi nəticələrini ona izah edir. Bütün çatışmazlıqlar reklam yayıcısına, eyni zamanda bildirilməlidir.

Qeyd olunan normaya baxmayaraq Agentlik tərəfindən Şirkətə sənədlərlə bağlı çatışmazlıqların aradan qaldırılması barədə heç bir bildiriş təqdim olunmamışdır.

## Arqumentlərin xülasəsi

I. Xüsusi mülkiyyətin girişində yerləşdirilmiş lövhənin reklam hesab edilməsi və lövhə üçün açıq məkanda reklam kimi icazə və ödəniş tələb olunması konstitusional mülkiyyət hüququna ziddir.

II. Reklam qanunvericiliyinin reklam və qeyri-reklam fəaliyyəti göstərən şəxsləri fərqləndirməməsi konstitusional bərabərlik hüququnu pozur.

III. İcazə ilə bağlı dövlət rüsumundan əlavə yayım haqqının tələb edilməsi qaydası dövlət ödənişlərinin qanunla müəyyən edilməsi ilə bağlı konstitusional tələbə uyğun deyil.

IV. Əvvəlki dövrə aid icazə alınmasının və ödənişlərin tələb edilməsi hüquqauyğun deyil.

## Məhkəməyə müraciət

Yuxarıda qeyd edilənləri nəzərə alaraq Məhkəmədən aşağıdakılar barədə qərar verilməsini

**XAHİŞ EDİRİK:**

1. ”Süngün” MMC-nin Açıq Məkanda Reklam Agentliyinə qarşı məlumat lövhəsinin “reklam lövhəsi” kimi təsnif edilməməsi, ödənilmiş dövlət rüsumunun və 5000 manat cərimə məbləğinin Agentlikdən tutulub Şirkətə ödənilməsi və icazə təmin edildiyi halda əvvəlki dövr üçün yayım haqqı və dövlət rüsumunun tələb edilməməsi tələbinə dair mülki iş üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının Qərarı Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinə, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 417.1.4-cü və 417.2-ci maddələrinə uyğun olmadığından qüvvədən düşmüş hesab edilsin.

2. İşə bu Qərarda göstərilən hüquqi mövqelərə uyğun olaraq Azərbaycan Respublikasının mülki prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada və müddətdə yenidən baxılsın.